Səh. 2 Texnologiyanın *surətli* inkişafı – Azər Musaoğlu

Səh. 3 Dərddən böyük dərman – Esmira Ələkbərli

Səh. 4 Valideyn xəyallarının kölgəsində böyüyən uşaqlar – Afaq Azər

Səh. 4 Azad seçim edirik, yoxsa trendlərin təsiri altında yaşayırıq? – Validə Fətullayeva

Səh. 3 "Yaşıl avtobus" arzusu – Hacı Bəkiroğlu

Səh. 5-6 NARİZİN PARLAMENTDƏ "GURULTULU" ÇIXIŞI VƏ TƏHSİL İSLAHATINI "ÇILPAQLAŞDIRAN" REALLIĞIN ANALİZİ

Səh. 7 Belə-belə işlər: Qalaktion Tabidze – Mirzə Məmmədoğlu

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ *HAQQIN SÖZÜ – SÖZÜN HAQQI*

*15 İYUN*

*2026-CI İL*

*№ 11 (251)*

# Yeni YOL

*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*

## TÜRKİYƏ, AZƏRBAYCAN VƏ GÜRCÜSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN İŞTİRAKI İLƏ İSTANBUL BƏYANNAMƏSİ QƏBUL EDİLİB



İyunun 8-də Türkiyə, Azərbaycan və Gürcüstan xarici işlər nazirlərinin 10-cu Üçtərəfli Görüşü çərçivəsində İstanbul Bəyannaməsi qəbul edilib.

İstanbul Bəyannaməsində nazirlər ölkələri arasında dərin dostluq, mehriban qonşuluq, qarşılıqlı hörmət və etimad ənənələrinə əsaslanan mükəmməl münasibətləri vurğulayıblar. Tərəflər arasında siyasi, iqtisadi, ticarət, sülh və təhlükəsizlik, elm və texnologiya və mədəniyyət sahələri daxil olmaqla, qarşılıqlı maraq doğuran bütün sahələrdə mövcud güclü əməkdaşlığı daha da irəli aparmaq istəyi ifadə edilib.

Sənəddə dövlətlərin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına güclü və birmənalı dəstəyi bir daha təsdiq edilib. Regional və qlobal çağırışları dəf etmək üçün güclü üçtərəfli əməkdaşlığın əhəmiyyəti vurğulanıb, regionun potensialının tam reallaşdırılması məqsədilə regional sülh, təhlükəsizlik və sabitliyin əhəmiyyəti qeyd edilib.

Bəyannamədə Bakı-Tbilisi-Ceyhan Boru Kəməri və Cənub Qaz Dəhlizinin regional və Avropanın enerji təhlükəsizliyinə strateji töhfəsi yüksək qiymətləndirilib. Trans-Xəzər Şərq-Qərb Orta Dəhlizi daxil olmaqla, ölkələrinin tranzit potensialının gücləndirilməsi istiqamətində atılan mühüm addımların əsas rolu vurğulanıb. Gürcüstanın Axalkalaki Beynəlxalq Dəmir Yolu Stansiyasında BTQ Dəmir Yolu Layihəsi çərçivəsində modernləşdirmə işlərinin başa çatması münasibətilə keçirilən tədbiri alqışlanıb.

Sənəddə yaşıl enerjinin nəqli və ticarəti məqsədli interkonnektorlardan istifadə də daxil olmaqla, bu tərəfdaşlığın davam etdirilməsinə və daha da genişləndirilməsinə tam dəstək bir daha təsdiqlənib.

Bərpaolunan enerjidən səmərəli istifadə daxil olmaqla, dayanıqlı artım sahəsində əməkdaşlığın dəstəkləndiyi Bəyanatda ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə üzrə regional əməkdaşlığın inkişaf etdirilməsi və gücləndirilməsinin vacibliyi vurğulanıb. Bu çərçivədə, Türkiyənin Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının 31-ci sessiyasına (COP31) sədrliyi alqışlanıb, Azərbaycanın Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasına (WUF13) uğurlu ev sahibliyi və onun beynəlxalq əməkdaşlığın, dialoqun və dayanıqlı inkişafın irəliyə aparılmasına verdiyi töhfə yüksək qiymətləndirilib.

Nazirlər terrorizmin bütün forma və təzahürləri, transmilli mütəşəkkil cinayətkarlıq, o cümlədən silahların, narkotiklərin və onların prekursorlarının qanunsuz dövriyyəsi, insan alveri, miqrant qaçaqmalçılığı, çirkli pulların yuyulması, mədəni və tarixi irsə qarşı cinayətlər və kibercinayətkarlıqla mübarizə məqsədilə müvafiq beynəlxalq və regional alətlərə uyğun olaraq əməkdaşlığın gücləndirilməsinə sadiqliklərini bir daha yeniləyiblər.

Sənəddə üçtərəfli görüşlərin müntəzəm keçirilməsinin vacibliyi vurğulanıb və 11-ci Üçtərəfli Görüşün 2027-ci ildə Gürcüstanda keçirilməsinə qərar verildiyi qeyd olunub.

## KOBAXİDZE: "BTQ AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ ƏMƏKDAŞLIĞININ UĞURLU NÜMUNƏSİDİR"



Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu layihəsi Azərbaycan, Gürcüstan və Türkiyə əməkdaşlığının uğurlu nümunəsidir. Bunu Gürcüstanın Baş naziri İrakli Kobaxidze BTQ dəmir yolu xəttinin modernləşdirilməsindən sonra istifadəyə verilməsi mərasimində bildirib.

Baş nazir layihəni tarixi əhəmiyyətli təşəbbüs adlandıraraq, onun Azərbaycan, Gürcüstan və Türkiyə arasında strateji tərəfdaşlığın və ardıcıl əməkdaşlığın parlaq nümunəsi olduğunu bildirib.

Onun sözlərinə görə, Marabda-Kartsaxi dəmir yolu hissəsinin yenidən qurulması regionda həyata keçirilən ən iri infrastruktur layihələrindən biridir.

İ.Kobaxidze qeyd edib ki, BTQ xətti 2017-ci ildən etibarən test rejimində fəaliyyət göstərib və bu müddət ərzində 1 milyon tondan çox yük, o cümlədən 80 minə yaxın konteyner daşınıb.

Baş nazir vurğulayıb ki, əldə olunan nəticələr layihənin iqtisadi və logistik əhəmiyyətini bir daha təsdiqləyir: "Bakı-Tbilisi-Qars dəmir yolu xətti Orta Dəhlizin mühüm hissəsidir və Avropa ilə Asiya arasında əlaqələrin gücləndirilməsində mühüm rol oynayır".

İ.Kobaxidzenin sözlərinə görə, həyata keçirilən modernləşdirmə işləri nəticəsində xəttin illik yükötürmə qabiliyyəti 5 milyon tona çatdırılıb ki, bu da regionun nəqliyyat və tranzit potensialını əhəmiyyətli dərəcədə artıracaq.



# TEXNOLOGİYANIN *SURƏTLİ* İNKİŞAFI

Azər Musaoğlu
azermusaoghlu@gmail.com

Deyəsən, "texnologiyanın sürətli inkişafı" bizlərə aid deyil. Düzdür, ən son çıxan telefonu, planşeti, kompüteri və s. əldə etmək imkanımız olsa da; ən son çıxan telefonu, planşeti, kompüteri baha-baha birinci biz alsaq da, yenə də ən son çıxan telefonu, planşeti, kompüteri elə sonda, yəni qiymətləri düşəndə alanlardan geridə qalırıq ki, qalırıq.

İstəyirsən cibində iki ədəd ayfon 17 pro maks gəzdir, əgər o ayfon 17 pro maksla mesaj yazanda, status yazanda bir sadə cümlədə 17 pro maksimum dəfə səhv edirsənsə, telefonun bircə zəng edib-zənglərə cavab verməkdən və yediyin yeməklərin şəklini çəkib vatsap statusunda paylaşmaqdan başqa bir zada yaramırsa, adi imeyl göndərə bilmirsənsə, niyə bu qədər xərcə düşürsən ki? Kimdən irəlidə olmaq istəyirsən? Yaxşısı budur, xərcə düşmə, sən onsuz da "texnologiyanın sürətli inkişafı" ilə özünü, həyatını, həyətini, təhsilini, işini paralel inkişaf etdirənlərə çata bilməyəcəksən. Axı sən heç gözümüzə soxduğun ayfon 17 pro maksla imeyl göndərə bilmirsən. Sən, ümumiyyətlə, imeylin nə olduğunu bilmirsən. Gör nəyi qoyub, nəyi danışırıq, ay həzərat...

Yaxşı, ən son çıxan telefonu, planşeti, kompüteri, avtomobili alıb imeyl göndərə bilməyənləri başa düşdük, imkan var, pul var, lazım gələr lap adam tutub pulla imeyl göndərtdirərlər. Bəs imeyl göndərə bilməyən müəllimləri, tələbələri, şagirdləri nəyin ayağına yazaq?..

Ayıbdır, vallah, ayıbdır! Axı 16 ildir Gürcüstanda orta məktəblərdə birinci sinif şagirdlərinə və müəllimlərə pulsuz kompüterlər (netbuk) verilir. Axı ibtidai siniflərdən etibarən şagirdlərin rəqəmsal savadlılıq dərsləri ilə tanışlığı həyata keçirilir. Bu gün kompüter texnologiyaları fənni 1-ci sinifdən 10-cu sinfə qədər tam məcburi fənn kimi tədris olunur. Bu 10 il ərzində şagird imeyl göndərməyi öyrənə bilmirmi? Bəs bu fənni tədris edən müəllimlər bu 10 ildə şagirdlərə nə öyrədiblər?

İndi deyəcəklər yenə müəllimləri günahkar çıxardı. Bəs kimdir müqəssir? Təhsil Nazirliyi bütün şagirdləri və onların müəllimlərini kompüterlərlə təmin edir ki, bu texnologiya dövründə müəllimlər şagirdlərə kompüterdən istifadə etməyi, proqramlarda yazı yazmağı, kitab oxumağı, imeyl göndərməyi öyrətsinlər. Vallah, elə məktəblər var ki, müəllimin özü kompüterdən istifadə edə bilmir. Şagirdlər netbukları ilk dərs günü alıb aparıb evdə tullayırlar, dərsə aparmırlar, müəllim tələb etmir, dərs keçilmir, şagirdlərin əvəzinə valideynləri həmin netbuklarda yutubda seriala-zada baxırlar.

Ümumiyyətlə, bizdə bir neçə fənnə ciddi yanaşmırlar. Məsələn, təsviri və tətbiqi sənət, musiqi, şahmat, informasiya və kommunikasiya texnologiyaları. Bizdə bu fənlərin ortaq adı da var artıq: idman dərsi. Təsviri və tətbiqi sənət dərsidir – "uşaqlar, topu götürün gedin stadiona". Musiqi dərsidir – "uşaqlar gedin stadionda top oynayın". Şahmat dərsidir – "uşaqlar, gedin stadiona". İnformasiya və kommunikasiya texnologiyaları dərsidir – "lap yaxşı, uşaqlar, stadiona və ya idman zalına!"

Bu fənlərə məktəblərdə ciddi yanaşılmadığına görə, tədris olunmadığına görə və ya ötəri, "quş qoymaq" xətrinə (üstündən) keçildiyinə görə şagirdlər də ciddi yanaşmırlar, valideynlər də ciddi yanaşmırlar və bu düşüncə artıq illərdir nəsildən-nəslə ötürülür – mən şagird olanda da belə idi, bu gün də belədir.

Əslində isə, məsələnin nə qədər ciddi olduğunu, bu fənlərin uşaqların gələcək həyatlarında nə qədər vacib olduğunu, onların zövqlərinin formalaşmasında, mədəniləşməsində, dünyagörüşlərinin genişlənməsində və zamanla şüurlu olaraq ayaqlaşmağı bacarmasında böyük rolunun olduğunu dərk etmirik.

Hörmətli müəllimlər, şagirdlərin biliyini şikəst etməyin, bütün fənlərə ciddi yanaşın və necə lazımdırsa elə də tədris edin, onlara texnologiyalarla işləməyi öyrədin, "word" proqramında yazı yazmağı öyrədin, yazdıqlarını imeyl vasitəsilə göndərməyi öyrədin; 9-10-cu sinif şagirdləri bilmirlər imeyl nədir, yazı imeyllə necə göndərilir; bilmirsinizsə özünüz də öyrənin. Ayfon 17 pro maksı cibində nənəm də gəzdirər. İmeyl göndərə bilən nəsil yetişdirin. Görünür bizdə texnologiyanın sürətli inkişafı yox, *surətli* inkişafı gedir. Ayıbdır, vallah, ayıbdır!

# BİR ÖZÜMÜZ OLA BİLMƏDİK



Bəzən marka düşkünü insanları görəndə dəli oluram. İki sözün arasında şalvarım filan markadır, pencəyim filan markadır, ayaqqabım "Lokisi" firmasındandır, alt paltarım 8 ulduzlu "Lavisi" firmasındandır. Amma heç düşünmür ki, ay bədbəxt, üstündən tövlə iyi gəlir. Get əvvəlcə düzgün bir ətir al, üstünə vur, sonra markadan danış. Bu nə markabazlıqdır axı? Güya dünənə qədər marka geyinirdin? Məsələ bir pencəyə 150 manat vermək deyil. Məsələ onu necə uyğunlaşdırmaqdır. Geydiyin qara şalvarla qırmızı ayaqqabı və ağ pencək tutuşmur axı. Hətta məsələ tək bu da deyil. Əsas məsələ o 150 manatlıq pencəyin içindəki adamın duruşu və səviyyəsidir. Sən ən yaxşısı özünə ilk növbədə ətir al, üstünə vur, sonra o əlindəki ayfonunu gözümə sox. Bilirsiniz da, ayfon xəstəliyi artıq kasıbından varlısına qədər çox adamın canına hopub. Görəsən 36 aylıq kreditə girib ayfon alan kasıbın dərdi nədir? Bir də masanın üstünə telefonu tərs qoymaları var, arada ekranın işığını yandırıb gözümüzə soxmaları var, yəni hamı görsün bunun ayfonu var, küçədə telefonu vertikal tutub arxa kamerasını camaata göstərmələr və s. Ay bala, bu görməmişlikdir axı? Sizin kimilərinə "ac dambat" deyirlər. İki-üç firma adı öyrəniblər, başlayırlar "Mən "Noziki"dən alıram, "Maziki"dən gətizdirirəm". Aha, nə olsun?..

İnanın Allaha, bir-iki sual verib söhbətin dərinliyinə girsək, elə həmin "Maziki" dediyi firmanın içində itib-batacaq. Amma elə danışır, guya dünyanın bütün brendləri ilə şəxsən özü işləyir. Camaatın da başını zad edir haa. Hamı da ağzı açıq oturub qulaq asır. Elə bilir qarşısındakılar da özü kimidir – boş-boş söhbətlərə heyran qalacaq. Xəbəri yoxdur ki, oturub bunları qeyd edirəm, sabah qəzetə material olsun deyə.

Vallah, "Maziki", "Taziki" söhbətlərinin hamısı təhsilsizlikdən və özünü göstərmək həvəsindən gəlir. Bunu niyə deyirəm, çünki firmaların adlarını belə səhv deyir. Yox, desinlər filankəs də firma adı bilir. Biz ölürük axı bu göstəriş xəstəliyindən ötəri. Filankəsin xanımı maşın sürürsə, sən də mütləq sürməlisən. Filankəs bahalı restorana gedibsə, sən də getməlisən. Axı niyə? Kiminsə etdiyini təkrarlamaq məcburiyyəti yoxdur. Niyə həyatımızı başqalarının həyatına uyğun qururuq? Niyə öz istəyimizlə yox, başqalarının baxışı ilə yaşayırıq? Elələri var ki, sırf kiməsə göstərmək üçün həyat yoldaşı ilə şəkil çəkdirib paylaşır: Qoy partlasınlar! – Kim partlasın? Niyə partlasın? Nəyə görə partlasın? Ərin "C-4"-dür, dinamitdir, yoxsa raket? Ər sənindir, türk demiş, "təpə-təpə kullan". Hamının əri də var, arvadı da. Bu qədər əri reklam etməyə nə ehtiyac var. Ehh, kassir qadının sözü olmasın: "Nə qədər danışsan da, desən də xeyiri yoxdur".

Axı niyə özümüz ola bilmirik? Özümüz demiş, mənim bir qohumum var, bunu da deyim sözümü bitirim. Deməli, qırx yaşına çatır, hələ də kim olduğunu bilmir. Açığı, biz də bilmirik. "Kurtlar vadisi" yeni başlayan vaxtlar uzun bir palto geyinib məhlədə "blatnoy-blatnoy" gəzirdi. Özünü Polad Ələmdara oxşadırdı. Sonra başqa seriallar başladı, bir ara "İçerde"nin qəhrəmanı oldu – Sarp. Oradan düşdü "Çukur"a, oldu Vartolu. İndi də eşidirəm sarı pencək geyinib olub "Abi". Gələn mövsüm "Yeraltı" serialına düşməsə yaxşıdır. Uzun sözün qısası, bütün serial personajları oldu, amma hələ də bircə özünü oynaya bilmədi. Çünki özümüz ola bilmirik.

Niyə xoşbəxtliyi başqalarının gözü ilə ölçürük? Vallah, billah, bu qədər saxtalıq, bu qədər nümayiş insanı yorur.

**Binəli İslamoğlu**
*"BEEZ" Uşaq Teatrının rəhbəri*

# DƏRDDƏN BÖYÜK DƏRMAN



Ömrün "Tale qapısı" hərdən-hərdən döyülür, bəzən sevinc gətirir, bəzən də kədər... İnsan oğlu öyrəşib kədəri-sevinci qarışıq qəbul edərək həyatını tarazlaşdırmağa. Bəzən də taleyin qapısından elə dərd gəlir ki, dərmanı dərdin özü qədər böyük olur.

Gürcüstanda Azərbaycandilli Məktəblərin şagirdi Sevgi balamız "Son zəng"in sevincini abituriyent adına yaraşdırarkən qəflət qapısı arzusuna çəpər çəkdi. Sosial mediada ətraflı işıqlandırılan bu mövzuya daxil olmadan məni təsirləndirən şahidi olduğum hadisələri sizinlə bölüşmək istəyirəm. Bəli, Sevgi mənim şagirdimdir. Olduqca yaxşı sözlərə layiq qızdır. Bacardığım qədər ona kömək etməyə çalışdım. Bunu ailəsi bilir. Məni qürurlandıran, kövrəldən isə başqa mövzudur.

Yəqin çox yerlərdə ümum el könüllü yardımından bəhs olunub, eşitmisiniz, oxumusunuz. Darda olan eldaşlarımıza kömək etmək bir vicdan borcudur. Axı heç birimiz qəfil döyülən qapıdan sığortalanmamışıq.

On gün əvvəl məktəbdə yayılan xəbər nəinki müəllimləri, hətta şagirdləri belə sarsıtdı. "Son zəng"in səsi qulağımızdan getməmiş gözümüzə yaş gəldi. Böyük məbləğ atasız bir ailə üçün əlçatmaz idi. Elə xəbər yayılan kimi kəndin "Ortalıq" dediyimiz mərkəzində bir masa, dəftər, qələm qoyuldu. Hər kəs sakit gəlib öz adını yazır, imkanı daxilində dəftərin içinə bir məbləğ qoyurdu. Bir vicdan borcu kimi. Bunlar, əminəm ki, elimizin əksər obalarında var. Ən kövrək tərəfi isə öndə idi. Bir gecənin içində bütün şagirdlərimizin, valideynlərimizin vatsap durumları eyni elanı paylaşaraq hər kəsi bir gəncin həyatını qurtarmaq üçün köməyə çağırdılar. Məktəbin yuxarı sinfindən oğlanlar müxtəlif kəndlərə gedib əhali üçün təbliğat aparır, köməklik etmələrini xahiş edirdilər. Kim bacarır hesab nömrəsinə, kim istəyir nağd verə bilər deyirdilər və üç gün ərzində müxtəlif kəndlərdən yardım topladılar. Elə bil bu xəbər hamını birləşdirmişdi. Sanki adamlar sabahın necə açılacağının naməlum olduğunu dərk etmişdilər. Bu, hər birimizin taleyi ola bilərdi. Məktəb şagirdləri, kənd uşaqları o qədər yekdil idilər ki, kövrəlməmək mümkün deyildi.

Yeddinci sinifdən yuxarı məktəbimizdə bütün siniflərlə icma qrupum vardı. Sadəcə bir təklif etdim: Məktəbdaxili bir xeyriyyə marafonu təşkil edək, "Sevgini sevək" deyərək, kədərin döydüyü qapını xeyirxahlığımızın gücü ilə qaytaraq dedim. Fikrim şagirdlər üçün o qədər xoş oldu ki, baxmayaraq ailələri də "Ortalıq" siyahısına qatılmışdı, mütləq təşkil edək dedilər. Məktəbin şagirdləri "Sevgini sevirik" deyə məktəbin həyətində, siniflərində gəzən qutu ilə xeyriyyə marafonuna qoşuldular. Etiraf edim ki, dəmir pullar gözlədiyim halda şagirdlər "Sevgini sevirik" deyərək kağız pulları qutuya atırdılar. Mən bu marafonu yuxarı siniflər üçün təşkil etmək istəmişdim, hətta ibtidai siniflər gəlib xahiş etdilər ki, olarsa qutunu saxlayın, sabah biz də qatılaq. Gözlədiyimdən yüksək məbləğ alındı.

Kədərin birləşdirdiyi bizlər yenə kövrək olmuşduq. Bəli, damlalar yığılıb dəryanı yaradır. Şagirdlərin bu addımı elə bir mənəvi dayaq idi ki, bu, Sevgini mütləq tezliklə Sevgi sevərlərlə görüşdürəcək.

Nənələr deyərdi alqış – xeyir dua arxadan atılan daşdır, mütləq biri dəyəcək. Fələyin çəkdiyi çəpərə nəinki xeyirxah insanlar, eyni zamanda şagirdlər də öz xeyirxah əməlləri ilə daş atdılar. O daş sevginin, birliyin, anlayışın sürəti ilə hücum idi.

Uşaqlar da bir mələkdirlər. Az yaşları ilə çox böyük iş gördülər. Sevgiyə "səni sevirik" dedilər, "tezliklə görüşəcəyik" dedilər. Böyük təpər verdilər. Bu, insanlığın birliyi idi, vicdanın birliyi idi.

**Esmira Ələkbərli**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# "YAŞIL AVTOBUS" ARZUSU



Hacı Bəkiroğlu
haci-bekiroglu@hotmail.com

Yaşadığımız dövrdə demək olar ki, bünyanın əksər ölkələrində ictimai nəqliyyat vasitələri olaraq son model nəqliyyatlar fəaliyyət göstərir. Bu istər şəhərlər və ya ölkələrarası qatar olsun, istər metro vaqonları olsun, istərsə də avtobuslar olsun – eynidir. Eləcə də ölkəmizin bir çox böyük şəhərlərində bu vəziyyət mövcuddur. Bəli, bəlkə də bir çox şəhərimizdə son model avtobuslar istifadə olunmur, ancaq təmiz, kondisionerli və komfortlu avtobuslar istifadə olunur.

Son zamanlar işə gedib-gəlmək üçün çox vaxt ictimai nəqliyyat vasitələrindən istifadə etməli oluram. Axşamçağı işdən qayıdarkən dayanacaqda avtobus gözlədikdə insanın içini, xəcalət hissimi deyim, paxıllıqmı deyim, qəribə bir duyğu bürüyür. Bu hiss həmçinin paytaxtda, eləcə də digər böyük şəhərlərdə ictimai nəqliyyat vasitələrindən istifadə edərkən də sənə tərəf qaçır. Çünki oradakı vətəndaşlar təmiz, komfortlu, kondisionerli avtobuslardan istifadə edərkən, biz qapıları təhlükəsizlik kəmərləri ilə tənzimlənən, pəncərələri açılmayan, 16 nəfər üçün nəzərdə tutulmuş, ancaq 26 oturacaq quraşdırılmış, oturanlardan çox ayaqda şərnişin daşıyan, amartizatorları belə işləməyən (texniki baxışdan necə kiçdiyi bəlli olmayan) "marşrutka"larla gedib-gəlmək məcburiyyətində qalırıq. Bu mənzərə sadəcə komfortun yoxluğu deyil, həm də hər gün yüzlərlə insanın həyatını və sağlamlığını texniki cəhətdən vaxtı keçmiş dəmir parçalarına əmanət etmək məcburiyyətidir.

Bu qədər problem yetməzmiş kimi, bəzi "ağıllı" sürücülərimizin harada gəldi saxlayıb qəza işıqlarını qoşaraq durması yarım-yamalaq təmir olunmuş yollarımızın üstündə bizə təqdim olunmuş bonusu kimidir. Bu yerdə adam həm də şükür etməli olur ki, nəzarətsiz qalan bir tək marşrutkalarımız deyil, bir də yanından polis maşını keçən, yolun ortasında qəza işıqları qoşulu olaraq duran avtomobillər də var.

Mən hər dəfə bu mikroavtobuslara mindikdə özüm-özümə sual verirəm: "Görəsən bizim rayonun əhalisi nə vaxt dövlət tərəfindən müxtəlif bələdiyyələrə hədiyyə edilən "yaşıl avtobuslar"a minəcəklər, yeni ictimai nəqliyyat vasitəsindən istifadə edəcəklər?"

Bu yaxınlarda yenə bir məclisdə bu mövzuya toxunuldu və belə bir söz ifadə edildi ki, "linyadakı "marşrutka" sürücülərinin qorxusundan kimsə bu məsələyə yaxın dura bilmir". Doğrusu, mən bu "tezisə" inanmaq istəmirəm. Çünki demokratik bir ölkədə yaşayırıq. İnanıram ki, əlaqədar qurumlar və yerli özünüidarəetmə orqanları bu məsələdə vətəndaşların səsini eşidəcək, dövlətimizin regionların inkişafı naminə yaratdığı geniş imkanlardan istifadə edərək bu problemi həll edərək arxivə göməcəklər. Çünki bizim bölgəmiz də, bizim insanlarımız da o "yaşıl avtobusları" çoxdan haqq edib.

İkinci bir məqam da var: deyək ki, ifadə edilən sözlər doğrudur. Bəs o zaman burada ədalət harada qalır. Bir neçə nəfərin çörəkpulu qazanması üçün cəmiyyət bu qədər çətinliyə dözmək məcburiyyətindədirmi? Əgər bu sürücülərdən çəkinilirsə, bunun da əlacı var. O zaman yeni avtobuslar gətirilsin və həmin o sürücülər də bu avtobusları idarə etsinlər. Hətta bu addım sürücülərin özü üçün də böyük bir sosial təminat olar. Onlar gün ərzində plan doldurma qorxusu ilə stress içində sərnişin toplamaq yarışına girməzlər. Rəsmi maaşlı, sığortalı və normal iş qrafiki olan peşəkar sürücülərə çevrilərlər. Beləliklə, sistem elə qurular ki, həm fərd qazanar, həm də cəmiyyət.

Əgər mövzu ilə əlaqəli məqamlar bu ictimai nəqliyyat məsələsini ələ alası olsalar, bir də buna əlavə olaraq Qardabanidən ətraf kəndlərə marşrut xətlərinin nəzərdən keçirilməsini də təklif edərdim. Çünki oradakı əhali də bu mövzuda əziyyət çəkir.

"Yaşıl avtobus" arzusu yolunda yaşıl işıq yandırılması arzusu ilə.

# VALİDEYN XƏYALLARININ KÖLGƏSİNDƏ BÖYÜYƏN UŞAQLAR



İnsan həyatı arzularla, məqsədlərlə və ümidlərlə doludur. Hər bir insan gələcəklə bağlı müəyyən planlar qurur, nailiyyətlər əldə etmək, arzularını reallaşdırmaq istəyir. Lakin həyat hər zaman düşündüyümüz kimi asan olmur. Bəzən imkanlar, şərait və ya zaman insanın gələcək üçün arzuladığı hədəflərə çatmasına mane olur. Belə hallarda bəzi valideynlər özlərinin həyata keçirə bilmədikləri xəyalları uşaqlarının üzərində həyata keçirməyə çalışırlar. Bu, ilk baxışda övladının yaxşı gələcək sahibi olmağını istəmək kimi görünür. Amma bunlar uşağın şəxsiyyətinin formalaşmasına və psixoloji inkişafına mənfi təsir göstərən ciddi bir problemdir.

Hər bir valideyn mütləqdir ki, övladları üçün həmişə hər şeyin ən yaxşısını arzulayır. Onlar uşaqlarının uğurlu gələcək sahibi, savadlı və cəmiyyətdə hörmət qazanan insanlar olmasını istəyirlər. Ancaq bəzən bu istək öz həddini aşır və uşaqların şəxsi seçimləri, maraqları, arzuları nəzərə alınmır.

Valideynlər bəzən öz gəncliyində həkim, müəllim, musiqiçi və ya başqa bir peşə sahibi olmaq istəyib nail ola bilmədiklərində həmin arzusunu övladının həyatında gerçəkləşdirməyə çalışır. Beləcə, ola biləcək ən yanlış şey olur və uşaq öz istəyinə görə deyil, valideyninin yarımçıq qalmış xəyalına görə yaşayır. Belə hallarda uşaqların çiyinlərinə görünməz bir yük düşür. Uşaq daim valideynini məyus etməmək üçün çalışır, öz istəklərini isə ikinci plana keçirir, hətta vaxt keçdikcə özünün nə istədiyini belə yaddan çıxardır. Çünki illərlə ona istədiyinə çatmalı olduğu deyil, nə etməli, hansı istiqamətə getməli olduğu öyrədilir.

Bu isə gələcəkdə çox ciddi fəsadlara səbəb olur. Həmin uşaq böyüdüyü zaman öz həyatı ilə bağlı qərar verməkdə çətinlik çəkən, özünəinamı olmayan və daxili dünyasında özündən narazı birinə dönür. Çünki valideyn uşağın istiqamətini öz istədiyi tərəfə çəkməklə həm də onun mənəvi azadlığını əlindən alır. Ən təhlükəli məqamlardan biri də odur ki, insan başqasının arzularını həyata keçirməyə çalışarkən öz həyatını yaşamağı yaddan çıxardır. Xaricdən uğurlu görünən bir çox insanın daxilində böyük boşluq hissi olur. Çünki əldə etdiyi uğurlar özünün deyil, başqasının istəklərinin nəticəsidir.

Hər kəs bilir ki, insan yalnız öz seçdiyi yolda irəlilədiyi zaman gördüyü işdən zövq alır və özünü xoşbəxt hiss edir. Çünki insanın qəlbindən gələn istəklər və arzular onun həyatına məna qatır və öz seçdiyi istiqamətdə büdrəməyi belə başqasının göstərdiyi yolda qazanılan uğurdan qat-qat üstün tutur. Sevmədiyi bir həyat tərzini yaşamağa məcbur olmaq zamanla insanın ruhunu yorur, özünə inamını azaldır və onu xoşbəxtlikdən uzaqlaşdırır. İnsan öz seçimləri ilə həyatını qurduqda qarşısına çıxan çətinliklərə daha dözümlü yanaşır. Çünki bilir ki, addımladığı yol onun öz seçimidir və bu yol onu arzularına yaxınlaşdırır.

Təhsil almaq, peşə sahibi olmaq və bacarığını ortaya çıxarmaq hər bir insanın ən təbii haqqıdır. Bu imkanlar əlindən alındıqda isə insan təkcə bu gününü deyil, gələcəyini də itirmək təhlükəsi ilə üz-üzə qalır. Məhz buna görə də hər bir gəncin, xüsusilə də qızların öz həyatları barədə qərar vermək, arzularının arxasınca getmək və gələcəklərini öz istəklərinə uyğun qurmaq hüququ qorunmalıdır. Çünki xoşbəxt həyat başqalarının seçdiyi deyil, insanın özü üçün seçdiyi yolda mümkündür.

Əslində, valideynlərin bu davranışının arxasında çox vaxt sevgi dayanır. Lakin sevgi bəzən yanlış formada ifadə olunur. Övladı qorumaq və ona istiqamət vermək başqa şeydir, onun yerinə qərar vermək isə tamamilə başqa. Uşaqlar valideynlərinin mülkiyyəti deyil. Onlar öz düşüncələri, hissləri, maraqları və arzuları olan fərdlərdir. Hər bir insanın öz həyat yolunu seçmək haqqı var.

Valideynlərin əsas vəzifəsi övladlarının yerinə qərar vermək deyil, onların həyatda nəyi bacardığını kəşf etməsinə kömək etməkdir. Uşağın hansı sahəyə marağı varsa onu həmin istiqamətdə dəstəkləmək daha doğru yanaşmadır. Çünki məcburiyyətlə qazanılan uğur qısa ömürlü ola bilər, amma sevərək, istəyərək seçilən yol insanı həm uğura, həm də xoşbəxtliyə aparır.

Nəticə olaraq, valideynlərin həyata keçirə bilmədikləri arzuları uşaqlarına yükləməsi çox vaxt xoş niyyətlə baş versə də nəticələri ağır ola bilər. Uşaqlar valideynlərinin yarımçıq qalmış xəyallarını tamamlamaq üçün deyil, öz həyatlarını qurmaq üçün dünyaya gəlirlər. Hər bir uşağa öz arzularını kəşf etmək, öz səhvlərini etmək və öz uğurlarını qazanmaq imkanı verilməlidir. Çünki insan yalnız öz seçdiyi həyatı yaşadıqda həqiqətən xoşbəxt ola bilir.

**Afaq Azər**
*Yazıçı*

# AZAD SEÇİM EDİRİK, YOXSA TRENDLƏRİN TƏSİRİ ALTINDA YAŞAYIRIQ?

Müasir dövrün gəncləri olaraq tarixdə heç bir nəslin malik olmadığı qədər geniş seçim imkanlarına sahibik. İnternet və rəqəmsal texnologiyaların inkişafı sayəsində dünyanın müxtəlif ölkələrində baş verən hadisələrdən xəbərdar oluruq. Fərqli mədəniyyətlərlə tanış olur və istədiyimiz məlumatı qısa zamanda əldə edə bilirik. İlk baxışdan belə görünür ki, bugünkü gənclər tam azad seçim etmək imkanına malikdirlər. Lakin bu həqiqətən belədir, yoxsa seçimlərimiz görünməz şəkildə cəmiyyət və trendlər tərəfindən formalaşdırılır?

Müasir informasiya mühiti insanların düşüncə tərzinə, davranışlarına və gündəlik həyatına güclü təsir göstərir. Hər gün minlərlə reklam, fikir və davranış modeli ilə qarşılaşırıq. Bir çoxları fərqli olmaq istədiklərini desələr də, çox vaxt eyni geyim tərzini seçir, eyni musiqiləri dinləyir və oxşar həyat tərzi formalaşdırırlar. Bu vəziyyət insanı düşündürür. Seçimlərimiz doğrudanmı bizə məxsusdur?

Bu təsirin ən aydın göründüyü sahələrdən biri xarici görünüş və həyat tərzidir. Bir müddət əvvəl məşhur olmayan bir geyim tərzi qısa zaman ərzində hansısa tanınmış şəxsdə görüldükdə geniş yayılır və minlərlə insan tərəfindən qəbul edilir. Maraqlıdır ki, insanların əksəriyyəti bu seçimi niyə etdiklərini belə izah edə bilmirlər. Sadəcə, həmin seçim populyardır və buna görə də qəbul olunur. Belə hallarda fərdi zövq ilə kütlənin təsiri arasındakı sərhəd getdikcə zəifləyir və insanlar özlərini başqalarının tərzinə uyğun yönəldirlər.

Peşə seçimində də oxşar mənzərəyə tez-tez rast gəlirik. Bir çox gənc gələcəyini planlaşdırarkən öz maraqlarını və bacarıqlarını deyil, daha çox gəlir gətirən və ya cəmiyyət tərəfindən prestijli hesab olunan sahələri seçir. Nəticədə, bəzi insanlar sevdikləri peşədən uzaqlaşır və başqalarının uğurlu hesab etdiyi yolları izləyirlər. Halbuki həqiqi uğur insanın öz qabiliyyətlərinə və maraqlarına uyğun seçim etməsindən başlayır.

Günümüzdə üzləşdiyimiz digər problemlərdən biri də daimi müqayisə hissidir. İnsanlar ətraflarında gördükləri uğurları öz həyatları ilə müqayisə edir və çox zaman özlərini kifayət qədər uğurlu hesab etmirlər. Lakin onlar görmürlər ki, təqdim olunan həyatın yalnız müsbət tərəfləri nümayiş etdirilir. Məsələn, blogerlərin kamera önündə bizə nümayiş etdirdikləri həyat ilə kamera arxasında yaşadıqları həyat kimi. Çətinliklər, uğursuzluqlar və mübarizə isə çox vaxt diqqətdən kənarda qalır. Nəticədə isə, biz gənclər reallıqla ideal görüntü arasındakı fərqi görməkdə çətinlik çəkirik.

Bu gün bir çox insan fərqli olmaq istəyir. Lakin həmin fərqlilik arzusu belə bəzən ümumi tendensiyaya çevrilir. İnsanlar özlərini başqalarından fərqli göstərməyə çalışsalar da, eyni davranışları təkrarlayır, eyni ideyaları müdafiə edir və nəticədə yenə də böyük bir kütlənin tərkib hissəsinə çevrilirlər. Bu isə müasir dövrün ən böyük paradokslarından biridir. Düzdür, bütün gənclərin trendlərin təsiri altında olduğunu demək doğru olmazdı. Öz maraqlarını və dəyərlərini əsas tutaraq qərar verən, kütlənin deyil, öz düşüncələrinin arxasınca gedən insanlar da mövcuddur. Tarix boyu cəmiyyətə yenilik gətirən və inkişaf etdirən şəxslər məhz belə insanlar olublar. Onlar başqalarının seçdiyi yolu təkrarlamaq əvəzinə öz yollarını yaratmağa çalışmışlar.

Əsl problem trendlərin mövcudluğu deyil. Trendlər cəmiyyətin təbii inkişafının bir hissəsidir. Problem insanın onları düşünmədən qəbul etməsindədir. İnsan öz seçimlərinin səbəblərini sorğulamadıqda başqalarının təsiri altında qərarlar verməyə başlayır. Bu isə zamanla fərdiliyin zəifləməsinə səbəb olur. Bəlkə də müasir gənclərin qarşısında duran ən vacib vəzifə seçim etmək deyil, seçimin həqiqətən özlərinə aid olub-olmadığını müəyyənləşdirməkdir. Çünki azadlıq yalnız seçim imkanına sahib olmaq deyil, həm də həmin seçimi şüurlu şəkildə etmək bacarığıdır. İnsan yalnız öz qərarlarının səbəbini dərk etdikdə və onları müstəqil şəkildə verdikdə həqiqi mənada azad seçim etmiş olur.



**Validə Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin 2-ci kurs tələbəsi*

# NARİZİN PARLAMENTDƏ "GURULTULU" ÇIXIŞI VƏ TƏHSİL İSLAHATINI "ÇILPAQLAŞDIRAN" REALLIĞIN ANALİZİ

***28 mayda təhsil naziri bizi əmin edirdi ki, 2026-2027-ci tədris ilinin əvvəlində 1-ci, 7-ci və 10-cu sinif şagirdlərini gürcü dili, tarix, coğrafiya, kimya, biologiya, fizika və riyaziyyat fənləri üzrə yeni dərsliklər qarşılayacaq. Givi Mikanadze onu da bildirdi ki, nazirlik tərəfindən hazırlanan və bütün məktəblərə paylanacaq dərsliklər tədris ili boyu təkmilləşdiriləcək:***

***"Dərsliklər qapalı rejimdə yaradılmayacaq. 15 sentyabrdan etibarən məktəblərə daxil olacaq bütün dərsliklər birbaşa tədris prosesində pilot mərhələsindən keçəcək və bu pilot layihə eyni vaxtda bütün məktəblərdə tətbiq olunacaq. Növbəti akademik il boyu müəllimlər və valideynlər dərsliklərin qiymətləndirilməsi, təkmilləşdirilməsi və rəy bildirilməsi prosesində birbaşa iştirak edəcəklər".***

***"2000-dən çox məktəb üçün dərsliklərin çap olunması və bunun pilot rejimdə həyata keçirilməsi nə dərəcədə əsaslandırılmışdır və ya mümkündür" sualına sahə mütəxəssisləri cavab verirlər ki, Təhzil Nazirliyi özünü sığortalayır. "2000 məktəbdə pilot sınağının keçirilməsi, əlbəttə ki, absurddur. Bu konseptual olaraq da absurddur və onların bu qədər məktəbdəki prosesləri izləmək üçün resursları da yoxdur" – Qafqaz Universitetinin professoru və Təhsil Nazirliyində Milli Tədris Planının inkişafı üzrə keçmiş koordinator Niko Silaqadze bildirib.***

***Sahə mütəxəssisi EDU.ARIS.GE-yə təqdim etdiyi məktubda təhsil nazirinin 28 may tarixli bəyanatlarına qarşı bir neçə mövzuda real faktları ortaya qoyur və yaradılmış illüziyaları faktlarla alt-üst edir:***

"2026-cı il mayın 28-də təhsil nazirinin parlamentdəki interpelyasiyasının şahidi olduq. Givi Mikanadze parlament müxalifətinin təhsil islahatı ilə bağlı verdiyi 44 sualı "cavablandırıb". 44 sualdan 8-i ümumi təhsil islahatı komponentinə aid idi, müvafiq olaraq, nazir məktəblə bağlı məsələlərin müzakirəsinə də müəyyən vaxt ayırdı.

Görüşün gedişində Givi Mikanadze öz qurumunun əməkdaşlarına dəfələrlə təşəkkür etdi. "Gürcü arzusu"nun deputatları isə naziri "mükafata layiq daşı qaldırdığına", yəni təhsil islahatını ayağa qaldırdığına və bu iş üçün göstərdiyi böyük səylərə görə tərifləyirdilər.

İnsanların bir-birinin əməyinə dəyər verməsi, əlbəttə ki, çox yaxşı haldır. Bir məqam olmasaydı, bütün bunları dinləmək xoş olardı – nazirin və "Gürcü arzusu" deputatlarının təhsil islahatı adlandırdıqları şey əslində təhsil islahatı ilə yalnız dolayı yolla bağlıdır.

***Üçsaatlıq görüş çərçivəsində heç kim bunlardan söhbət açmadı:***

- Təhsil məzmunları;
- Vətəndaşların keyfiyyətli təhsilə və təhsilin keyfiyyətinə ümumi əlçatanlığını yaxşılaşdıran və ya pisləşdirən səbəb-nəticə əlaqələri;
- Gürcüstanın təhsil sisteminin inkişafına mane olan problemlər.

Təhsil islahatı çərçivəsində hansı nəticələrin əldə olunacağını təxmin edirsinizmi? Təhsil naziri bu suala da cavab vermədi (Baxmayaraq ki, bu sual müxalifət tərəfindən ona yazılı şəkildə təqdim olunmuşdu (41-ci sual).

Müzakirənin, ilk baxışdan, "təhsilin keyfiyyəti" və "keyfiyyətli təhsilə bərabər çıxış imkanları" mövzusundan kənara çıxa bilmədiyi hallarda belə, biz az-çox dərininə gedən bir müzakirə deyil, yenə də texnokratik bir səthilik gördük. Həmin interpelyasiyada bunun ən azı beş belə halını/nümunəsini müşahidə etdik:

(1) Nazir ali təhsil islahatı ilə çox öyünürdü. Universitet proqramlarının bir-birinin ardınca "3+1" formatı adlanan sistemdə akkreditasiyadan keçdiyini qeyd etdi, lakin əsas sual yenə də cavabsız qaldı:

– Universitet proqramları müddətinin qısaldılmasının onların keyfiyyətinin yüksəlməsinə və yaxşılaşmasına səbəb olduğu harada görünüb?

Belə bir üslubda qısaldılmış proqramlara problemsiz şəkildə akkreditasiya verən Təhsilin Keyfiyyəti üzrə İnkişaf Mərkəzinə ayıb olsun (Sanki bir müddət əvvəl eyni universitetlərlə "4+2" formatında tərtib olunmuş proqramların məqsəd və nəticələrinin reallaşdırılması üçün lazım olan zaman məhdudiyyətləri barədə mübahisə edən özü deyilmiş kimi).

(2) Müəllimlərin peşəkar inkişafı sxemindən danışarkən nazir köhnə sxemi yeni "müasir" sxemlə əvəz etdiyimizi heç bilmirsiniz də deyə rəqiblərinə lağ etdi. Bunu dedi və qalibiyyət ədası ilə parlament müxalifətinin üzvlərinə elə baxdı ki, sanki "yeni sxem"də həqiqətən də yeni nə isə var idi (2025-ci il dekabrın 31-də sxemdə etdikləri dəyişikliklər kimi kosmetik xarakterli dəyişikliklər əvvəllər də dəfələrlə "köhnə sxem"ə daxil edilmişdi).

Heç kəs bu suala cavab verməyə çalışmadı – "yeni sxem" çərçivəsində müəllimin peşəkar inkişafı nəyi nəzərdə tutur?

Cəhd etmədilər, çünki çıxış nöqtəsi olaraq yenə də həmin "müəllimin peşə standartı" və "fənn xüsusiyyətləri"ni əsas götürürlər; keyfiyyət dəyişikliyi kimi isə kosmetik düzəlişləri qələmə verirlər.

(3) Nazir inklüziv təhsili də dəfələrlə qeyd etdi – sən demə, Müəllimlər Evi ibtidai sinif müəllimləri üçün bu istiqamətdə treninqlərə başlayıbmış, lakin bu treninqlərdə müəllimlərə nə öyrədildiyi barədə heç nə deyilmədi. Ümid edirəm ki, 2026-cı il yanvarın 26-da təsdiqlənmiş "Ümumi Təhsil Sisteminin İnkişafı üzrə Milli Konsept"də yazdıqlarını – mərkəzləşdirilmiş-kütləvi treninqlər vasitəsilə bütün müəllimlərə, indiyədək multi-komandanın üzvlərinin belə anlamaqda çətinlik çəkdiyi psixoloji məzmunlu məsələləri öyrətməyi ciddi şəkildə etmək fikrində deyillər.

(4) Nazir müxalifətin peşə təhsili ilə bağlı suallar verməməsindən çox hiddətlənmişdi – buna görə də onları qeyri-kompetentlikdə qınayırdı. Lakin, bir qədər sonra, artıq "Gürcü arzusu"nun deputatları: – Peşə kolleclərində təhsilin keyfiyyətini nə ilə yaxşılaşdırmağı düşünürsünüz? – deyə soruşduqda (bununla kollec məzunlarının səriştəsinin də bu mərhələdə o qədər də qibtəolunacaq vəziyyətdə olmadığına işarə edərək), Mikanadze bu sualdan yan keçdi.

O, peşə təhsilinin əhəmiyyəti, yeni kolleclərin tikintisi prosesi və kolleclər üçün kontingentin artırılması mexanizmləri (vahid milli imtahanlarda kəsilən tələbələrə birbaşa kollecə keçmək üçün "alternativ" yaradılması nəzərdə tutulur) barədə çox danışdı. Elə danışırdı sanki təhsil müəssisələri tərəfindən daha çox tələbənin qəbul edilməsi hansısa baxımdan keyfiyyətin yüksəldilməsinə töhfə verirmiş.



Görünür, peşə və inklüziv təhsil istiqamətində eyni məntiqlə hərəkət edirlər – əgər qurum/təhsil müəssisəsi az sayda benefisiarın inkişafının öhdəsindən gələ bilmirsə, çıxış yolu onlara daha çox insan üçün eyni xidməti göstərməyi tapşırmaqdır – sözün əsl mənasında qüsursuz məntiqdir, deməyə söz yoxdur.

(5) Nazir ən böyük ruh yüksəkliyi ilə yeni dərsliklər barədə danışdı. Xüsusilə qeyd etdi:

– Məktəbin iki, üç və ya daha çox dərslik arasında seçim etmək məcburiyyətində qalması dərsliklərin keyfiyyətinə necə də zərər vurur;

– Sən demə, qrifləşdirmə prosesinə bir çox yaxşı müəllif cəlb olunubmuş və hazırkı kitabların bir çox fəsli heç də pis deyilmiş (görünür, hazırda qüvvədə olan və ya qrif verilməsi prosesində bəyənilməyən kitabları kosmetik şəkildə yenidən redaktə etmək və sentyabrda onları "inqilabi dərəcədə yeni məhsul" kimi elan etmək niyyətindədirlər);

– Psixoloqlar və müəlliflərin guya öz əlləri ilə həyata keçirilən hansısa araşdırmadan da danışdı; sanki hələ də inkişaf etdirilən və hələ də ehtiyac duyulan əlavə rəqəmsal resursları qeyd etdi;

*(davamı səhifə 6-da)*

*(əvvəli səhifə 5-də)*

– Həmçinin, bütün, yəni 2000-dən çox məktəbdə həyata keçirilməli olan çox qəribə bir pilot sınaq formatı barədə də danışıldı. Pilotlaşdırma, bir qayda olaraq, hər hansı bir şeyi bütün məktəblərə daxil etməzdən əvvəl, onun kiçik miqyasda tətbiq olunub yoxlanılmasını nəzərdə tutur. Heç bir hazırlıq görülmədən 2000-dən çox məktəbə elə-belə paylanmış dərsliklərin hansı məntiqlə pilot layihə adlandırıldığını isə qoy bu prosesin həqiqətən də onların rəylərini və pedaqoji təcrübələrini öyrənmək üçün elan edildiyinə inanan müəllimlər müzakirə etsinlər (əslində, bu təşəbbüsün mahiyyəti gün kimi aydındır – əgər insanlar nazirliyin yazdığı, daha doğrusu, yeni üslubda yenidən köçürdüyü köhnə kitabları bəyənməsələr, deyəcəklər ki, bu, real tətbiq prosesi deyil, sadəcə pilot sınağıdır).

– Kitabların qalınlığının/ağır kitab daşımağın uşağın sağlamlığına necə zərər vurduğundan və məktəblərdə on hissəyə bölünmüş kitabların semestr-semestr paylanmasının nə üçün daha yaxşı olduğundan danışdı (hansı ki, bu halda uşaq fənnin bütün məzmununu ildən-ilə bütöv görə bilmir; kitabı vərəqləyib fənnin ümumi konturlarını dərk etmək imkanından məhrum olur); Nazir məktəb dərslikləri ilə bağlı yuxarıda sadalanan məsələlərin müzakirəsinə kifayət qədər çox vaxt sərf etdi. Buna baxmayaraq, yeni dərsliklərdə nəyin yeni olacağı barədə (ya məzmun, ya da metodoloji baxımdan) bir kəlmə də belə kəsmədi. Təbii ki, Milli Tədris Planı da heç kimin yadına düşmədi (nazir bu sənədi tamamilə fərqli bir kontekstdə, məktəblər üçün tövsiyə xarakterli saatlıq dərs şəbəkəsi hazırladıqlarını qeyd edərkən xatırlatdı). Xatırladaq ki, nazirlik dərslikləri yazmazdan əvvəl Milli Tədris Planını dərc etməlidir. "Ümumi təhsil haqqında" qanuna əsasən (Maddə 26), nazirlik: "320) Milli Tədris Planı ilə müəyyən edilmiş standartlara uyğun olaraq... ümumi təhsil müəssisəsinin dərsliklərini hazırlayır və onların çapını təmin edir".

Bundan əlavə, institusional və mənəvi öhdəlik də mövcuddur – kitabları on minlərlə tirajla çap edib məktəb ictimaiyyətini fakt qarşısında qoymazdan əvvəl, yeni dərsliklərin məzmununu cəmiyyətlə müzakirə etməlisən. Mikanadze administrasiyası, 2026-cı il yanvarın 26-da təsdiqlənmiş "Ümumi Təhsil Sisteminin Milli Konsepsiyası"na uyğun gələn Milli Tədris Planını dərc etməyib. Bununla da o, cəmiyyətə açıq şəkildə bildirdi ki, tədris proqramlarının məzmunu, fənlərin pillələr üzrə bölüşdürülməsi və digər bu kimi məsələlər şəxsi işdir: yəni bu, Givi Mikanadze, Tamar Maxaraşvili, Lali Kalandadze, Eka Kvirikaşvili və nazirliyin digər bu kimi məmurlarının şəxsi işidir, cəmiyyətlə razılaşdırılmalı olan bir məsələ deyil.

Milli Tədris Planının "oyundankənar vəziyyətdə" saxlanılması, xüsusən də nazirin interpelyasiyada məktəbin orta pilləsinin təşkili barədə artıq hazır/razılaşdırılmış bir konsepsiya formatında danışdığını nəzərə alsaq, daha da təhqiramizdir. O, qeyd edirdi:

• Guya artıq nəzərə aldıqları beynəlxalq təcrübəni;

• Konkret pillələrin missiyasını: (a) sən demə, "fundamental fənlərin" mühüm olduğu əsas pillədən fərqli olaraq, 10-11-ci siniflərdə dar ixtisaslaşmadan daha çox diqqətin başqa şeyə yönəldilməsi lazım imiş; (b) ümumi təhsil ilə peşə istiqamətinin bir-birinə necə möhkəm bağlanmalı olduğunu;

• Dərsliklərin məzmununun razılaşdırılması prinsipini (tarix proqramı nümunəsində).

Nazir repetitorluğun böyük əhəmiyyətini vurğulamağı da unutmadı. Bunun əvəzinə isə 12-ci sinfin əhəmiyyətini hər vəchlə azaltmağa çalışdı (bunun ləğv edilməsinin ali təhsil məntiqindən irəli gəldiyinə işarə etdi).

Givi Mikanadze bu kimi məsələlər barədə uzun-uzadı danışdı, lakin bütün bunların əyani şəkildə yazıldığı Milli Tədris Planını nə vaxtsa bizə göstərəcəyinə dair heç vəd də vermədi (Məsələn, orada repetitorluğun hansı məqsədlə mövcud olduğu, həm var olan, həm də sanki ümumi təhsilin bir hissəsi olmayan 12-ci sinifdə nəyin tədris olunduğu və s. görünür).

Təəssüf ki, Milli Tədris Planına qarşı təxribatla yalnız Mikanadze administrasiyası məşğul olmur. Nədənsə bu sənədə nə parlament, nə də parlamentdənkənar müxalifət rəğbət bəsləyir (Bir qayda olaraq, onu heç yerdə xatırlatmırlar).

Nazirin təqdimatından onu da öyrəndik ki, sentyabrdan etibarən 1-ci, 7-ci və 10-cu siniflərdə yeni kitablarımız olacaq: gürcü dili, tarix, coğrafiya, kimya, fizika, biologiya və riyaziyyat fənləri üzrə; bununla belə, musiqi, təsviri incəsənət və vətəndaşlıq kimi digər fənlərdə niyə eyni imtiyazdan məhrum olacağımızı izah etməyə zəhmət çəkmədilər (Ümid edirəm ki, bu fənlərlə bağlı fərqli planları olduğu üçün deyil).

Artıq danışmağa dəyməz ki, islahatın digər, təhsilin məzmunundan nisbətən uzaq olan istiqamətlərindən bəhs edilərkən də məzmunlu vurğular ön plana çıxmadı. Nazir burada beş islahat istiqamətinə toxundu:

(a) İnfrastrukturla bağlı məsələlər artıq yalnız Təhsil Nazirliyinə aid deyil (Sən demə, məsuliyyəti İnfrastruktur və Regional İnkişaf Nazirliyi ilə bölüşüblər); yəni bundan sonra uçub-dağılan və qəzalı vəziyyətdə olan məktəblər İnfrastruktur və Regional İnkişaf Nazirliyinin "məsuliyyətindədir", lakin təmir olunmuş məktəb yenə də Təhsil Nazirliyinin "piar aktivinə" yazılacaq.

(b) Administrasiya üçün maaşların artırılması. Görünür, administrasiya əməkdaşlarının sadiqliyi qiymətləndirilib, yoxsa nazir müəllimlərin maaşlarından hər dəfə: "əgər"... , "onda...", "buradan irəli gələrək..." formatında danışırdı. Xüsusilə, kadr-əməkhaqqı siyasəti kontekstində fənn imtahanından keçmək öhdəliyini və peşəkar inkişaf sxemini xatırladırdı.

(c) Kadr siyasəti – bu kontekstdə aşağıdakılar nəzərdən keçirilir: 60 kreditlik proqram, aparıcı və mentor müəllimlər, pedaqoji fakültələr, müəllimlərin peşəkar inkişaf sxemi (Təəssüf ki, nazir bu hissədə konkretlikdən qaçdı); həmçinin "antikorrupsiya qanunlarını" da kadr siyasəti ilə əlaqəli şəkildə qeyd edirdi.

(ç) Sən demə, qeyri-formal təhsil komponentindən istifadə etməklə və patriarxlığın səyləri ilə "dəyərlər təhsilinin gücləndirilməsi" davam edir; təbii ki, ruhani şəxslərin məktəbdə nə öyrətdiyinə və ya bu istiqamətdə hazırlanmış ixtisasartırma proqramının nəyi nəzərdə tutduğuna dair heç bir qeyd olunmadan (Aydındır ki, bu barədə sual vermək belə günah sayılır).

(d) Sentyabr ayı üçün məktəb formalarının hazırlanması prosesi də, sən demə, aktiv şəkildə davam edir, lakin böyük gecikmə ilə. Məlum olur ki, 15 sentyabradək formaların çatdırılması yalnız 1-ci siniflər üçün mümkün olur; qalanlarına isə formaları semestr ərzində çatdıracağıq, deyə nazir qeyd edib (Təhsil Nazirliyinin dilində bu cür ifadələr işin ən azı bir il müddətinə təxirə salınması deməkdir).

"Ümid edirəm" ki, sonda məktəb formaları da birinci siniflərin qeydiyyatının taleyini yaşamayacaq – yəqin xatırlayırsınız, bir neçə ay əvvəl bunu necə böyük ruh yüksəkliyi ilə islahatın prioriteti kimi təqdim



edirdilər; 16 sentyabrda və sonrakı aylarda doğulan uşaqları birinci sinfə qeydiyyata almayacaqlarını necə qətiyyətlə bəyan edirdilər, lakin bu yaxınlarda həmin tarixi heç bir mərasim olmadan yanvarın 1-nə qədər "çəkdilər"; interpelyasiyada isə bu barədə ümumiyyətlə heç nə xatırlatmadılar.

İnterpelyasiya zamanı Mikanadze və "Gürcü arzusu"nun deputatları təkəbbürlü bir mövqe nümayiş etdirirdilər. Parlament müxalifətinin deputatlarını "islahatın mahiyyətini anlaya bilməməkdə" qınayırdılar. Onu isə demirdilər ki, bu "islahatın mahiyyətini" nə parlament çoxluğunun hər hansı bir deputatı, nə nazirliyin hər hansı bir əməkdaşı, nə məktəb icmasının üzvləri, nə də Mikanadzenin hər regionda intensiv şəkildə görüşdüyü valideynlər bilir.

Bilmirlər, çünki səbəbi bəsitdir – bu islahatın heç bir məzmunu/mahiyyəti bütövləşdirən xətti yoxdur. "Gürcü arzusu"nun islahat adlandırdığı şey, əslində, təhsil sisteminin müxtəlif istiqamətləri ilə bağlı populist piar bəyanatlarının toplusundan başqa bir şey deyil. Bu piar bəyanatlarının konkret sistemli problemlərlə yalnız şərti/səthi bir əlaqəsi var və onların normal şəraitdə təhsil islahatı konsepsiyasının əsaslanmalı olduğu keyfiyyətli təhsillə və ya keyfiyyətli təhsilə bərabər çıxış imkanları ilə heç bir ortaq tərəfi yoxdur.

Təhsil Nazirliyi sistemdəki bəzi şeyləri sistemsiz şəkildə "deformasiya etməyə" çalışır. Elə şeyləri ki, səs-küyə səbəb olacaq – piar xidməti isə sonradan bu səs-küyü "real islahatın" qaçılmaz fonu kimi qələmə verəcək. Bu interpelyasiya da məhz bu qəbildən olan "səs-küyün tirajlanması" məqsədini güdürdü.

*Mənbə: edu.aris.ge*

*Gürcü dilindən tərcümə etdi*

**Aynurə Əliyeva**

# BELƏ-BELƏ İŞLƏR: QALAKTİON TABİDZE



*(əvvəli ötən sayda)*

Ömrünün son illərində Qalaktionun səhhəti kəskin şəkildə pisləşdi. Dipsomaniya, alkoqol aclığı, alkoqoldan sui-istifadə – Qalaktionun tibbi müayinələrində alkoqolla bağlı terminlər tez-tez təkrarlanır. Qalaktion müalicə kombinatının daimi pasienti idi. İntiharından bir il əvvəl Tabidze Vake klinikasına dörd dəfə düşdü. 1959-cu il də xəstəxana palatası ilə başladı. Üç həftəlik kurs 5 martda başa çatdı, halbuki, 12 gün sonra şair yenidən müalicə kombinatının nevrologiya şöbəsində göründü. İntihar etdiyi gün, 17 martda Qalaktionu qardaşı oğlu Nodar Tabidze səhər saat 10-da müalicə müəssisəsinə apardı.

Nodar Tabidze: “Xəstəlik və depressiya səbəbindən Qalaktion son vaxtlar aqressivlik nümayiş etdirirdi. Amma 17 mart səhəri o sakit idi. Demək olar ki, hər şeydə mənimlə razılaşdı. Paltosunu geyindirəndə əllərinin titrədiyini hiss edirdim. Belə vaxtlarda onun yeganə xilası bir stəkan araq idi, amma xəstəxanada yatmalı olduğu üçün həmin gün onu içə bilmədi. Yol boyu bir kəlmə də olsun danışmadan getdik”.

Tabidze müalicə müəssisəsinin nevrologiya şöbəsinə yerləşdirildi. Şairə çarpayı ayrılana qədər iki saat keçdi. Kombinatdakı bütün palatalar dolu idi. Ən yaxşı – lüks palata – Tbilisi Mərkəzi Univermağın direktoru tərəfindən tutulmuşdu.

Saat birdə şair üçün iki nəfərlik palataya əlavə olaraq üçüncü çarpayı yerləşdirildi. Palatadakı xəstələr darısqallıqdan narazılıqlarını bildirdilər. Qalaktion paltarlarını dəyişdi və xəstəxana xalatı geyindi. Qardaşı oğlu Nodar Tabidze paltarlarını evə apardı. Şair müalicə kombinatının dəhlizində tək qaldı.

Nodar Tabidze: “Getməzdən əvvəl Qalaktion məni qucaqladı və öpdü. Mənə çoxlu tapşırıqlar verdi. Çavçavadze küçəsində mətbəə bürosunun yerləşdiyi yerdə kitabın bir hissəsini mətbəə işçisinə çatdırmalı idim. Sonra nəşriyyatda onun kitabının çapının necə getdiyini öyrənməli idim. Nəhayət, o, ertəsi gün gələndə məndən “Pələng dərisi geymiş pəhləvan”ı ona gətirməyimi istədi”.

Saat ikidə Qalaktion ilk dəfə nevrologiya şöbəsinin palatasına daxil oldu. Şairin adına məcburi anket açıldı. Onu divanda uzandırdılar və standart müayinə prosedurundan keçirdilər. Nəbz 84, qan təzyiqi 180/80. Tabidzeyə hipertoniya və ateroskleroz diaqnozu qoyuldu.

Martın 17-də Qalaktion demək olar ki, palatasına girmirdi. İntihar etməzdən əvvəl bütün vaxtını dəhlizdə keçirir, xəstəxana işçiləri ilə söhbət edir və siqaret çəkirdi. Saat 4 radələrində nevrologiya şöbəsi müdirinin otağında bir daha, bu dəfə növbətçi həkim Susana Arakelova müayinə etdi. Saat 5-də şair ilk intihar cəhdini etdi. O, stul götürüb dördüncü mərtəbənin eyvanına çıxmağa çalışdı. Qalaktion xəstəxana işçiləri tərəfindən saxlanıldı. Eyvan yağışdan islanmışdı və tibb işçisi ona bayıra çıxmamağı məsləhət gördü. Xəstə Tabidze ona bir kəlmə demədən itaət etdi.



Saat altının yarısında Qalaktion dəhlizdə terapevtik palatada müalicə alan tanış yazıçı Vladimir Maçavariani ilə qarşılaşdı. Maçavariani onu şeirlərini oxumaq üçün üçüncü mərtəbəyə dəvət etdi. Şair dəvəti rədd etmədi. Halbuki prosedurları səbəb gətirdi və daha sonra görüşəcəyinə söz verdi. Bu, Qalaktionun son sözləri idi.

Qalaktion nevrologiya şöbəsi müdirinin kabinetinə üçüncü və sonuncu dəfə daxil olanda saat altıya on dəqiqə qalmışdı. Xəstəxana xalatını çarpayının üstünə atdı, pəncərənin yanına stul apardı, üstünə oturdu və pəncərəni açdı...

Qalaktion pəncərədən yıxılanda ilk olaraq özünü ona yetirən tibb bacısı Medeya Çaxunaşvili oldu. Tibb bacısı xəstəxanadakı növbəsini bitirmişdi və artıq evdə idi. Medeyanın evi xəstəxana həyətinə yaxın idi, ona görə də xəstəxana həyətindəki hay-küyü aydınca eşitdi.

Medeya Çaxunaşvili: “Qışqırıqları eşitdim və səsə qaçdım. Ora çatanda üzü üstə uzanmış bir adam gördüm. Üzünü çevirdim və cənab Qalaktionu gördüm. Həmin an camaat onu əhatəyə almışdı. Nəbzini, arteriyasını yoxladım, amma nəbzi yox idi. Mən ora çatanda artıq ölmüşdü”.

***

“Bir dəfə Yazıçılar İtifaqı prezidentinin iclasına bir neçə yazıçını dəvət edirlər: Qalaktion Tabidze, Varlam Juruli və az tanınmış başqalarını. Dəvət olunanları içkiyə görə çox məzəmmət edirlər. Məzəmmət olunanları yola salandan sonra İosif Qrişaşvili birdən coşur. Bunlarla bərabər Qalaktion Tabidzeni necə dəvət ediblər deyir”. *(Mariam Tielidze).*

1924-cü ildə “Mnatobi” (“Dan ulduzu”) jurnalının beşinci nömrəsində Qalaktion Tabidzenin “Şimşək çaxan günlərin xatirələri” poeması dərc olunur. Bu poema 1921-24-cü illərdə Gürcüstanda baş verən faciənin kəskin poetik əks-sədasıdır. Sovet hökuməti bu poemanı dərc erdirdiyinə görə Qalaktionu həbs edir və Metexi qalasına salır, sözü gedən jurnalın tirajı isə tamamailə məhv edilir.

***

“...14 il Gürcüstanın rəhbəri olmuş Kandid Çarkviani xeyli vaxtdan sonra kitab yazdı, sonra bu kitabı nəşriyyata apardı. Burada da nəşr etmək üçün mənə verdilər. Oxuyanda gördüm ki, Qalaktion Tabidze barədə bir az qəribə yazılıb: “Qalaktionu heç bir vəchlə işə qoşmayaq, o, Lenin ordenini itirdi”. Mən ona dedim ki, Qalaktion Tabidze hansı işə qoşulmalı idi, qeyri mütəşəkkil idi, o, yaxşı şeirlər yaza bilirdi və bu hissəsini çıxardın dedim. Əvvəlcə təəccübləndi. Sonra xeyli vaxt keçəndən sonra o, bu abzası çıxartdı, kitab çıxdı və çıxandan sonra peşman oldum ki, o hissənin çıxarılması üçün gərək xahiş etməyəydim. Saxlatdırmalı idim. Çünki Qalaktion Tabidze təkcə bir böyük şair kimi deyil, eləcə də içən adam kimi tanınırdı. Bu cür günahlar bağışlanılmalıdır və ya da, ola bilsin ki, daha yaxşı yazılmalıdır”. *(Mariam Tielidze).*

*(davamı növbəti sayda)*

Topladı və gürcü dilindən tərcümə etdi:
**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com “ახალი გზა” საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 İYUN 2026-CI İL № 11 (251)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# GÜRCÜSTANIN TƏHSİL SEKTORUNA İNVESTİSİYA QOYAN ÖLKƏLƏR ARASINDA TÜRKİYƏ ÜÇÜNCÜDÜR



2025-ci ildə Gürcüstanın təhsil sektoruna qoyulan ümumi birbaşa xarici investisiyalar 11,6 milyon ABŞ dolları təşkil edib. Ötən il bu sektorda bir neçə ölkədən birbaşa xarici investisiyalar qeydə alınıb. Bununla belə, ən böyük beş investor ölkə arasında ABŞ birinci yerdə qərarlaşıb. Beşliyə Almaniya, Türkiyə, Rusiya və Birləşmiş Krallıq daxildir.

“Yeni Yol” “bm.ge” saytına istinadən xəbər verir ki, Gürcüstan Milli Statistika Xidmətinin ilkin məlumatlarına əsasən, TOP-5 investor ölkə tərəfindən 2025-ci ildə təhsil sektoruna aşağıdakı həcmdə investisiya yatırılıb:

**ABŞ – 5,9 milyon ABŞ dolları;**
**Almaniya – 3,2 milyon ABŞ dolları;**
**Türkiyə – 1,4 milyon ABŞ dolları;**
**Rusiya – 221 100 ABŞ dolları;**
**Birləşmiş Krallıq – 180 800 ABŞ dolları.**

Qeyd etmək lazımdır ki, 2025-ci ildə təhsil sektorunda 17,9 milyon ABŞ dolları həcmində birbaşa xarici investisiyalar qeydə alınmışdı ki, bu da 2024-cü illə müqayisədə 6 milyon ABŞ dolları çoxdur. Əsas investor ölkələr demək olar ki, eyni idi.

Məlumat üçün bildirək ki, ötən il ümumi xarici investisiyalar 7,6 % artaraq 1,68 milyard dollara çatıb. Ölkələr üzrə Gürcüstana ən çox investisiya Birləşmiş Krallıqdan daxil olub ki, bu da 334 milyon dollar təşkil edir. Bu, Gürcüstanın ən böyük maliyyə institutlarının hüquqi olaraq Böyük Britaniyada qeydiyyatdan keçməsi və onların əməliyyatlarının Milli Statistika Xidməti tərəfindən birbaşa xarici investisiyalar kimi qeydə alınması ilə bağlıdır. Bunu nəzərə alaraq, sektorlar üzrə maliyyə sektoru 607 milyon dollarla məhz birinci yeri tutur. Təhsil sektoru isə doqquzuncu yerdə qərarlaşıb.

***2025-ci ildə ən çox xarici investisiya qoyulan sektorlar:***

Maliyyə və sığorta fəaliyyəti – 607 milyon dollar, artım 5 %;
Daşınmaz əmlak – 185,7 milyon dollar, artım 2 %;
Nəqliyyat – 166,1 milyon dollar, artım 58 %;
Emal sənayesi – 161,3 milyon dollar, azalma 12 %;
İnformasiya və rabitə – 115,2 milyon dollar, artım 77 %;
Tikinti – 95,7 milyon dollar, artım 555 %;
Ticarət – 52,1 milyon dollar, azalma 68 %;
İncəsənət, əyləncə və istirahət – 49,7 milyon dollar, artım 78 %;
Təhsil – 11,7 milyon dollar, azalma 35 %;
Kənd təsərrüfatı – 4,2 milyon dollar, azalma 158 %.
Digər sektorlar – 239,9 milyon dollar, artım 1 %.

# BAŞ NAZİR: ÖTƏN İL PEŞƏ TƏHSİLİ PROQRAMLARINA 19742 NƏFƏR QƏBUL OLUNUB



İl ərzində (iyun, 2025 – may, 2026), peşə təhsili proqramlarına ümumilikdə 19742 nəfər, peşə hazırlığı və peşə ixtisasartırma proqramlarına isə 11918 nəfər qəbul olunub.

Bu barədə Gürcüstanın Baş nazirinin hökumət proqramının icrasının gedişatı ilə bağlı hesabatında deyilir.

İctimaiyyətə indiyədək məlum olmayan rəqəmlərlə yanaşı, İrakli Kobaxidze yazır ki, peşə təhsilinə əlçatanlığın artırılması məqsədilə daha 63 dövlət məktəbində inteqrasiya olunmuş peşə təhsili proqramları tətbiq edilib.

Peşə təhsili kontekstində Baş nazir abituriyentlərə yaradılan imkanlara da toxunub və burada da onlar üçün müəyyən edilmiş yerlərin sayını qeyd edib: “2026-cı ildən etibarən ilk dəfə olaraq, vahid milli imtahanlar çərçivəsində qeydiyyatdan keçmiş abituriyentlər ali təhsil proqramları ilə yanaşı, peşə təhsili proqramlarını da seçmək imkanına malikdirlər. Onlar həm Tbilisidə, həm də regionlarda təklif olunan 10600-dək yerdə dövlət maliyyələşməsi ilə peşə təhsili proqramlarında təhsil ala bilərlər”.

İrakli Kobaxidze həmçinin qeyd edib ki, hesabat dövründə peşə təhsili müəllimlərinin tənzimləyici çərçivəsi yenidən işlənib hazırlanıb və bu çərçivə 2027-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

# UŞAQ BAĞÇALARINA NƏZARƏT GÜCLƏNDİRİLİR



Gürcüstanda uşaq bağçalarının avtorizasiyası aktiv şəkildə davam edir. Meyarları qarşılaya bilməyən təlim-tərbiyə müəssisələrinə nöqsanları aradan qaldırmaq üçün 2030-cu ilə qədər vaxt veriləcək, əks halda onlar bağlanacaq – qanunvericilik bunu nəzərdə tutur.

“Yeni Yol” “etaloni.ge” saytına istinadən xəbər verir ki, təhsil nazirinin müavini Zviad Qabisoniya bağçalardakı əsas problemlərin infrastruktur, həmçinin ixtisaslaşma hissəsində olduğunu bildirib. Hazırda təxminən 190 dövlət və yalnız 1 özəl bağça avtorizasiyadan keçib.

Məlumdur ki, sanitariya normalarına, qidalanma rasionuna və təhsil standartlarına xüsusi diqqət yetirilir, həmçinin uşaqların və tərbiyəçilərin sayı da nəzarətdə saxlanılacaq.

***“Avtorizasiya prosesi müəyyən növ monitorinq tətbiq etmək və yoxlamalar aparmaq imkanına malikdir. Müvafiq olaraq, monitorinq intensiv olacaq və hansı hissədə daha çox müdaxiləyə ehtiyac ola biləcəyi daha aydın görünəcək”,*** – deyə Z.Qabisoniya əlavə edib.

# CARİ İLİN BİRİNCİ RÜBÜNDƏ GÜRCÜSTANDA 1518 NƏFƏR 16-17 YAŞLI ŞƏXS SÜRÜCÜLÜK VƏSİQƏSİ ALIB




Cari ilin birinci rübündə Gürcüstanda 7383 sürücülük vəsiqəsi verilib. Onlardan 1518 sürücülük vəsiqəsi 16 və 17 yaşlı şəxslərə verilib.

“Yeni Yol” “bm.ge” saytına istinadən xəbər verir ki, verilən sürücülük vəsiqələrinin əksəriyyəti Gürcüstan vətəndaşlarının payına düşür, lakin sürücülük vəsiqəsi alan əcnəbilər də var. Onların arasında Rusiya və Hindistan vətəndaşları üstünlük təşkil edir.

***I rübdə sürücülük vəsiqələri verilib:***

Rusiya vətəndaşlarına – 77;
Hindistan vətəndaşlarına – 24;
Belarus vətəndaşlarına – 16;
Ukrayna vətəndaşlarına – 9;
Banqladeş vətəndaşlarına – 7;
Pakistan vətəndaşlarına – 7;
Azərbaycan vətəndaşlarına – 6;
Türkiyə vətəndaşlarına – 3;
Qazaxıstan vətəndaşlarına – 3.

Ötən ilin ümumi məlumatlarına gəlincə, Daxili İşlər Nazirliyinin statistikasına görə, 2025-ci ildə Gürcüstanda 29647 sürücülük vəsiqəsi verilib, 2024-cü ildə isə bu rəqəm 28730 təşkil edib.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.